**Kimə: Azərbaycan Respublikasının**
**Auditorlar Palatası**

**Cənab Novruzov Vahid Tapdıq oğlu**
**Sədr**

**Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyasının (ACAP) Azərbaycan Respublikasının Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə göndərdiyi təbriki**

**Hörmətli həmkarlar,**

Azərbaycan Respublikası Auditorlar Palatasının Şura üzvlərini və bütün üzvlərini bu 25 ildə bir çox sayda vacibli proqramları, tədbirləri peşəkar səviyyədə idarə etdiklərinə, yüksək fəaliyyətlərinə və eyni zamanda gördüyü böyük işlərə görə təbrik edirik.

Bu 25 illik yubiley, Auditorlar Palatasının və ölkənizdəki audit peşəsinin illər ərzində mövqeyini xeyli gücləndirdiyini və ictimai maraqlara xidmət edərkən əhəmiyyətli bir mərhələyə çatdığını, milli və beynəlxalq maliyyə bazarlarının və iqtisadiyyatın inkişafına töhfə verməklə yanaşı, maliyyəyə etibarlılığı və şəffaflığı artırdığını nümayiş etdirir.

Palata Şurası və üzvləri yorulmadan səy göstərərək həm milli, həm də beynəlxalq səviyyədə audit fəaliyyətinin inkişafındakı xidmətlərinə görə mükafatlarla dəyərləndirilir və dərin qiymətləndirilir.

Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyasının Şurası və mindən çox üzvü adından bu günə qədər göstərdiyiniz yüksək peşəkar fəaliyyətiniz və yubileyiniz münasibətilə Sizə səmimi qəlbdən təbriklərimizi çatdırırıq.

Gələcək böyük uğurlar diləyi ilə bu xüsusi gümüş ildönümü münasibətilə təbriklərimizi qəbul edin.

**Böyük hörmətlə,**

**Georgeta COVALIOV-RUSU**
**ACAP Prezidenti**

**Natalia ZLATINA,**
**ACAP İcraçı direktoru**